# TƏBRİK



**Cənab General!**

Bu gün Azərbaycanın Böyük Vətən savaşında siz və bütün ordumuz qəhrəmanlıq dastanı yazırsınız. Göstərdiyiniz rəşadət bütün Azərbaycanı sevincə bürüyüb. Belə bir anda özünüzün yubileyinizi - yəni 45 yaşınızı səngərdə qarşılamaq özü də bir şanlı səlnamədir. Bütün Azərbaycan bilir ki, sizin komandanlığınız altında ordumuz Füzuli-Cəbrayıl istiqamətində hər gün yeni uğurlar qazanır, düşməni işğal etdiyi torpaqlarımızdan qovursunuz.

**Hamımızın əzizi cənab Hikmət Həsənov!**

Sizi, Füzuli rayon Pirəhmədli kəndində doğulmuş generalımızı 45 yaşınızın tamam olması münasibəti ilə ürəkdən təbrik edir, Böyük Qələbəmizin qeyd olunacağı an sizin də yubiley günü olacağına inanırıq. Bir daha sizi bağrımıza basırıq, sizə can sağlığı, Böyük Qələbəmizin müjdəçisi olmağı arzu edirik. İnanırıq ki, sizin yubileyinizi Şuşada qeyd edəcəyik!

Tanrı Azərbaycanı qorusun! Tanrı Ordumuzu qorusun! Qarabağ Azərbaycandır! Yubileyiniz mübarək olsun!

**Millət vəkili Aqil Abbas**
**və “Ədalət” qəzetinin kollektivi**

---

Ədəbiyyat qəzeti.- 2020.- 10 oktyabr. S. 1.